**A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

№ 72 «12» May 2026-cı il

**Yaşayış yeri üzrə Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış vətəndaşların mənzil uçotunun təsdiqi barədə**

Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 12.11.2012-ci il tarixli 218 saylı sərəncamına əsasən Rayon İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində uçotda olan vətəndaşların mənzil uçotu siyahılarının dəqiqləşdirilməsi məqsədi ilə komissiya yaradılmışdır.

Komissiya tərəfindən Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətində ümumi və güzəştli əsaslarla mənzil uçotuna dayanmış ailələrin mənzil uçot işi üzrə araşdırma aparılır. Araşdırma zamanı məlum olmuşdur ki, bir sıra vətəndaşlar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillə təmin olunmaları səbəbindən mənzil uçotu siyahılarından çıxarılmalıdırlar. Həmçinin müəyyən edilmişdir ki, bir sıra vətəndaşlar Rayon İcra Hakimiyyətində ümumi və güzəştli əsaslarla mənzil uçotuna alınmışlar.

Qeyd olunanlara, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.6-cı və 6.8-ci bəndlərinə və Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 51-ci və 55-ci maddələrinə əsaslanaraq

**qərara alıram:**

**1.** Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış vətəndaşların mənzil uçotu siyahısı aşağıdakı qaydada təsdiq olunsun (adlı siyahı əlavə olunur):

- Ümumi güzəştli siyahı üzrə - 1182 ailə;
- Güzəştli siyahı üzrə - 823 ailə;
- Güzəştli əsaslarla mənzil uçota götürülmüş ailələrdən:
- Qarabağ müharibəsi veteranları - 65 ailə;
- Şəhid ailəsi - 62 ailə;
- Qarabağ müharibəsinin əlilləri - 128 ailə;
- Böyük Vətən Müharibəsinin əlilləri - 5 ailə;
- Azərbaycanın Milli Qəhrəmanı - 1 ailə;
- "20 Yanvar" faciəsi əlilləri və şəhid ailələri - 1 ailə;

- Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılmasında iştirak edərkən əlil olmuş şəxslər - 21 ailə;
- Hərbi xidmət vəzifəsini yetirməklə əlaqədar əlil olmuş və ehtiyatda olan zabitlər - 157 ailə;
- Əfqanıstan müharibəsi əlilləri və iştirakçıları - 13 ailə;
- Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunları - 2 ailə;
- Ümumi xəstəlikdən gözdən əlillər - 77 ailə.

2. Binəqədi Rayon İcra Hakimiyyətində mənzil növbəsinə götürülən hal-hazırda daimi qeydiyyat ünvanı Binəqədi rayonunda olmayan vətəndaşlar mənzil növbəsindən çıxarılaraq onların mənzil-uçot qovluqları aidiyyəti üzrə qeydiyyatda olduqları rayonun İcra Hakimiyyətlərinə göndərilsin - 109 ailə.

3. Binəqədi Rayon İcra Hakimiyyətində mənzil növbəsinə götürülən vəfat etmiş vətəndaşlar mənzil növbəsindən çıxarılsın - 240 ailə .

4. Qeyd olunan siyahılarda göstərilən məlumatların mütəmadi olaraq dəqiqləşdirilməsi üçün Sərəncamın surəti və ona əlavə edilmiş siyahılar Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə və Bakı şəhəri Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinə göndərilsin.

5. Sərəncamın və ona əlavə edilmiş siyahıların surətləri məlumat üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilsin.

**Elxan Allahverdiyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri**
**və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**